**Mahir Həmzə oğlu Zeynalov**

**UOT: 33.005; JEL: P42**

# Dünya Bankının "Doing Business" hesabatında "Elektrik təchizatı şəbəkələrinə qoşulma" indikatoru üzrə Azərbaycanın reytinqi

***Xülasə***

*Məqalədə son illər Azərbaycanda sahibkarların elektrik təchizatı şəbəkələrinə qoşulması ilə bağlı aparılmış islahatlardan və ölkəmizin bu sahədə "Doing Business 2020" hesabatındakı reytinqindən bəhs olunur.*

***Açar sözlər:*** *biznes mühiti, sahibkarlıq, Dünya Bankı, "Doing Business 2020", elektrik təchizatı şəbəkələrinə qoşulma indikatoru*

## Giriş

Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən iqtisadi islahatlar sahibkarlığın daha səmərəli şəkildə dövlət tənzimlənməsi və dəstəklənməsinə əsaslanır. Başlıca məqsəd biznes mühitinin daha da yaxşılaşdırılması yolu sahibkarlığın inkişafının stimullaşdırılmasıdır. Son illər Azərbaycanda biznes mühitinin daha da yaxşılaşdırılması istiqamətində konkret iqtisadi islahatlar aparmaq üçün mühüm qərarlar qəbul olunub. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli "Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamı ilə Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiya yaradılıb. Həmin Komissiya sahibkarlıq fəaliyyətinin optimal gəlirliliyini təmin edəcək və rəqabət prinsiplərinə əsaslanacaq biznes mühitinin yaradılması, ölkənin investisiya cəlbediciliyinin artırılması, beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyinin daha da yaxşılaşdırılması ilə əlaqədar qanunvericiliyin və inzibatçılığın təkmilləşdirilməsinə və bu istiqamətdə digər zəruri tədbirlərin görülməsinə dair təkliflərin hazırlanmasında və həyata keçirilməsində əsas rola malik kollegial orqandır [1]. Ölkədə aparılan islahatlar Dünya Bankı kimi beynəlxalq qurumlar tərəfindən qeydə alınır, onların hesabatlarında öz əksini tapır, reytinqlərdə ölkəmizin mövqeyinə mühüm təsir göstərir. Belə nüfuzlu reytinqlərdən biri olan Dünya Bankının "Doing Business" hesabatında son illər ölkəmiz ən islahatçı ölkələrdən biri kimi qeyd olunur. "Doing Business 2020" hesabatına görə Azərbaycan 2018-ci ildə olduğu kimi 2019-cu ildə də dünyanın 20 ən islahatçı ölkələri sırasındadır.



Dünya Bankı "Doing Business" hesabatı üzrə ölkənin reytinqini hesablayarkən 10 indikator - biznesə başlama, tikinti icazələrinin alınması, elektrik təchizatı şəbəkələrinə qoşulma, əmlakın qeydiyyatı, kreditlərin alınması, kiçik investorların müdafiəsi, vergilərin ödənilməsi, sərhəddə ticarət, müqavilələrin icrası, müflisləşmənin həlli üzrə tədqiqat aparır. Burada sahibkarların "Elektrik təchizatı şəbəkələrinə qoşulma"sı sahəsindəki vəziyyət biznes mühitinə təsir göstərən mühüm indikatorlardan biri hesab olunur. Bu tədqiqatda son illər Azərbaycanda bu sahədə qəbul olunmuş qanun, qərar və sərəncamların biznes mühitinə təsiri öyrənilmiş, habelə "Elektrik təchizatı şəbəkələrinə qoşulma" indikatoru üzrə aparılan islahatların nəticələri və yaxşılaşdırılması imkanları qeyd olunmuşdur.

## Metodologiya

Dünya Bankı "Doing Business" tədqiqatlarında hər hansı şərti anbar üçün daimi elektrik bağlantısı və təchizatı əldə olunması üçün tələb olunan bütün prosedurları qeydə alır. Bu prosedurlara ərizələr, elektrik enerjisi müəssisələri ilə müqavilələr, elektrik paylayıcı

*©Mahir Həmzə oğlu Zeynalov i.f.d, dos. AMEA İqtisadiyyat İnstitutu*
*©AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

şirkətlər və digər agentliklər tərəfindən bütün zəruri yoxlamalar və icazələr, habelə xarici və yekun qoşulma işləri daxildir. Sorğuda elektrik təchizatına qoşulma prosesi ayrı-ayrı prosedurlara bölünür və hər bir prosedurun tamamlanmasına sərf olunan vaxt və xərcləri hesablamaq üçün lazımi məlumatlar müəyyən edilir.

Bundan əlavə, "Doing Business" təchizatın etibarlılığı və tariflərin şəffaflığı indeksini (ümumi bala və ölkənin hesabatdakı reytinqinə daxil edilmişdir) və elektrik enerjisinin qiymətini (ümumi hesablamalara daxil edilməmişdir) ölçür. Təchizatın etibarlılığı və tariflərin şəffaflığı indeksi elektrik kəsilmələrinin müddəti və təkrarlanmasının kəmiyyət göstəricilərini, eləcə də təchizatçı tərəfindən elektrik kəsintilərinin nəzarətdə saxlanılması və elektrik təchizatının bərpa edilməsi üçün yaradılmış mexanizmlərin keyfiyyət göstəricilərini, təchizatçı və elektrik kəsintiləri üzrə tənzimləyici arasında hesabat əlaqələrini, tariflərin şəffaflığı və əlçatanlığını, kəsilmələrin sayını azaltmaq məqsədi ilə təchizatçının maliyyə tədbirləri ilə (məsələn, kəsilmələr müəyyən həddi keçdikdə, müştərilərə kompensasiya verilməsi və ya cərimələrin ödənilməsi tələbləri) üzləşmə hallarını əhatə edir.

Elektrik təchizatı şəbəkələrinə qoşulmanın asanlığı üzrə ölkələrin reytinqi həmin ölkələrin elektrik enerjisinin əlçatanlığı üzrə ballarını sıralamaqla tərtib edilir. Bu ballar elektrik enerjisinin qiyməti istisna olmaqla, bütün digər komponentlər üzrə balların ədədi ortasıdır. Təchizatın etibarlılığına dair məlumatlar, bu məlumatların spesifik texniki təbiətindən asılı olaraq elektrik enerjisi təchizatı şirkətləri və ya tənzimləyicilərdən toplanılır. Tariflərin şəffaflığı və elektrik bağlantısının qurulması prosedurları haqqında məlumatlar da daxil olmaqla digər məlumatlar bütün bazar iştirakçılarından – elektrik paylayıcı şirkətlərdən, elektrik enerjisi tənzimlənməsi qurumlarından və müstəqil mütəxəssislərdən (elektrik mühəndisləri, elektrikquraşdırma müəssisələri, tikinti şirkətləri və s.) əldə edilir. Məlumatlar anbarların ən sıx yerləşdiyi ərazi(lərə) xidmət göstərən elektrik paylayıcı şirkətdən toplanılır. Elektrik paylayıcı şirkətlər arasında bir neçə seçim olduqda, ən böyük müştəri kütləsinə malik olan qurum seçilir. Məlumatları ölkələr üzrə müqayisə etmək məqsədilə anbar, elektrik şəbəkəsinə qoşulma və aylıq istehlak barəsində bir sıra ehtimallardan istifadə olunur.



Elektrik təchizatına qoşulma indikatoru qoşulma prosesinin səmərəliliyi, eyni zamanda enerji təchizatının etibarlılığı və tariflərin şəffaflığı ilə əlaqədar dəyişiklikləri qeydə alır. Məlumatlar üzərində olan təsirlərdən asılı olaraq, müəyyən dəyişikliklər islahatlar kimi təsnif edilir və əhəmiyyətli dəyişikliklərin həyata keçirildiyini təsdiqləmək üçün hesabatda "Doing Business" islahatları üzrə xülasədə verilir. İslahatlar biznes fəaliyyətini asanlaşdıran və biznes fəaliyyətini çətinləşdirən dəyişikliklər olmaqla iki qrupa bölünür. Elektrikə təchizatına qoşulma indikatoru islahat olub-olmamasının müəyyən edilməsi məqsədilə iki meyardan istifadə edir.

İndikator üzrə ən yüksək nəticəyə qədər olan məcmu boşluqdan istifadə edilərək dəyişikliklərin təsiri qiymətləndirilir. Ən yüksək nəticəyə qədər nisbi məsafə üzrə 2 faiz və ya daha çox dəyişikliyə səbəb olan hər hansı bir yenilənmə islahat kimi təsnif edilir. Məsələn, kommunal xidmətlərə qoşulmada yeni bir pəncərə sisteminin tətbiq edilməsi nəticəsində yeni qoşulma müraciətlərinin emalına sərf edilən müddət, bununla da ümumi nisbi məsafə 2 faiz və ya daha çox aşağı düşərsə, bu dəyişiklik bir islahat olaraq təsnif edilir. Digər halda, nisbi boşluq üzrə 2 faizdən az məcmu təsir göstərən kommunal ödənişlər üzrə düzəlişlər və digər bu kimi kiçik dəyişikliklər islahat olaraq qeydə alınmır, lakin həmin dəyişikliklərin təsiri bu göstərici qrupu üçün ən çox yenilənmiş göstəricilərdə əks etdirilir

İkincisi, islahat hesab olunması üçün məlumatlarda həyata keçirilən dəyişikliklər xarici təsir hesabına deyil, elektrik təchizatı şirkətinin və ya dövlətin təşəbbüsü ilə edilməlidir. Məsələn, əgər kəsintilər bir ildə əvvəlki ilə nəzərən sərt hava şəraiti səbəbindən əhəmiyyətli

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

dərəcədə artarsa, bu, biznes fəaliyyətini çətinləşdirən islahat hesab oluna bilməz. Analoji qaydada, elektrik enerjisi təchizatı şəbəkələrinə qoşulmaq üçün istifadə olunan materiallar ilə əlaqəli xərclər (məsələn, kabel və ya transformatorlar) milli valyuta məzənnəsinin yüksəlməsi nəticəsində azalarsa, bu, biznes fəaliyyətini asanlaşdıran islahat hesab oluna bilməz. Lakin əgər elektrik təchizatı şirkəti qoşulma prosesini səmərəli etmək üçün bir pəncərə sistemi tətbiq edərsə və ya enerji açılmalarına nəzarəti və elektrik enerjisi xidmətlərinin bərpasını gücləndirmək məqsədilə avtomatlaşdırılmış sistem qurarsa, bu tədbirlər biznes fəaliyyətini asanlaşdıran islahatlar hesab oluna bilər [3].

**Azərbaycan "Dünya Bankının "Doing Business 2020" hesabatında**

Dünya Bankının 2019-cu ilin oktyabr ayında açıqladığı "Doing Business 2020" hesabatına əsasən Azərbaycan həmin hesabatda dünyanın 190 ölkəsi arasında 34-cü yeri tutub. Ölkəmiz "Doing Business" hesabatında 2015-ci ildə 80-ci yerdə olduğu halda, 2016-cı ildə 63-cü, 2018-ci ildə 57-ci, 2019-cu ildə 25-ci yerə yüksəlib (cədvəl 1).

**Cədvəl 1.**

**Azərbaycan "Dünya Bankının "Doing Business 2020" hesabatı**

| | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|
| **Ölkələrin sayı** | **189** | **189** | **190** | **190** | **190** | **190** |
| **Ümumi reytinq** | **80** | **63** | **65** | **57** | **25** | **34** |
| **Biznesə başlama** | 12 | 7 | 5 | 18 | 9 | 9 |
| **Tikinti icazələrinin alınması** | 150 | 114 | 127 | 161 | 61 | 59 |
| **Elektrik təchizatı şəbəkələrinə qoşulma** | 159 | 110 | 105 | 102 | 74 | 80 |
| **Əmlakın qeydiyyatı** | 10 | 22 | 22 | 21 | 17 | 44 |
| **Kreditlərin alınması** | 104 | 109 | 118 | 122 | 22 | 1 |
| **Kiçik investorların müdafiəsi** | 51 | 36 | 32 | 10 | 2 | 105 |
| **Vergilərin ödənilməsi** | 33 | 34 | 40 | 35 | 28 | 40 |
| **Sərhəddə ticarət** | 166 | 94 | 83 | 83 | 84 | 83 |
| **Müqavilələrin icrası** | 31 | 40 | 44 | 38 | 40 | 28 |
| **Müflisləşmənin həlli** | 94 | 84 | 86 | 47 | 45 | 47 |



Ölkəmiz "Doing Business 2020" hesabatında biznesə başlama indikatoru üzrə 9-cu, tikinti üçün icazələrin alınması üzrə 59-cu, elektrik təchizatı şəbəkələrinə qoşulma üzrə 80-ci, əmlakın qeydiyyatı üzrə 44-cü, kreditlərin alınması üzrə 1-ci, kiçik investorların hüquqlarının müdafiəsi üzrə 105-ci, vergilərin ödənilməsi üzrə 40-cı, sərhəddə ticarət üzrə 83-cü, müqavilələrin icrası üzrə 28-ci və müflisləşmənin həlli indikatoru üzrə 47-ci yerdədir. "Doing Business 2020" hesabatına görə Azərbaycan 2018-ci ildə olduğu kimi 2019-cu ildə də dünyanın 20 ən islahatçı ölkələrinin (Çin, Hindistan, Küveyt, Pakistan, Qətər, Özbəkistan, Qırğızıstan və s.) sırasında yer alıb. 2018-ci ilin mayından 2019-cu ilin mayına kimi biznes mühiti ilə bağlı 115 ölkədə 294 islahat aparılıb [5].

Azərbaycanın "Doing Business 2020" hesabatında ən yüksək nəticə əldə etdiyi sahə kreditlərin əlçatanlığıdır. Belə ki, bu göstərici üzrə kompleks biznes islahatları çərçivəsində "Daşınar əmlakın yüklülüyü haqqında" Qanuna və Mülki Məcəlləyə edilən dəyişikliklər ilə uyğunlaşdırmaların aparılması öz töhfəsini verib. Beləliklə, son dəyişikliklər nəticəsində aparılan sadələşdirmələr nəticəsində daşınar əmlakın bir kateqoriyasının ümumi formada təsvirinin verilməsi, gələcəkdə əldə ediləcək əmlakın yüklü edilməsinə, əsas öhdəliyin maksimal ölçüsünün göstərilməsinin mümükünlüyünə icazə verilir. Azərbaycan kreditlərin əlçatanlığı göstəricisi üzrə 190 ölkə arasında 1-cidir. Əmlakın qeydiyyatı sahəsində islahatlar aparmaq üçün "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda və Nazirlər Kabinetinin 134 və 453 nömrəli qərarlarında müvafiq dəyişikliklər

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

edilib. Bu sahədə aparılan islahatlar nəticəsində əmlak üzərində mülkiyyət hüququnu təsdiq edən çıxarış elektron qaydada verilir. Əmlakını rəsmi qeydiyyata almaq istəyən şəxs müvafiq olaraq müraciət etdikdə çıxarışlar 1, 3, 7 və 10 iş günündə hazırlanır. Bundan başqa, daşınmaz əmlakın kadastrı və qeydiyyatı ilə bağlı müstəqil və xüsusi müraciət mexanizmləri də yaradılıb. Əmlak Xidmətləri Məkanının istifadəyə verilməsi ilə bütün xidmətlər bir pəncərədən göstərilir.

Kiçik investorların hüquqlarının müdafiəsi ilə əlaqəli olaraq "Mülki Məcəlləyə" və "Mülki Prosessual Məcəllə"yə edilən dəyişikliklər ilə səhmdarların keçirilən əməliyyatlar nəticəsində vurulan zərərə görə direktoru məsuliyyətə cəlb etmə, iddiaçının konkret sənəd göstərilmədən işə dair bütün sənədləri tələb edə bilməsi, yaranan fikir ayrılığı üzrə həll mexanizmi və bu kimi digər yeniliklər mövcuddur.

Müqavilələrin icrası göstəricisi üzrə isə kompleks biznes islahatları çərçivəsində ədalət mühakiməsinin daha da təkmilləşdirilməsi məqsədilə məhkəmə-hüquq islahatları aparılıb. "Mediasıya haqqında" qanunun qəbulu ilə inzibatçılıq qaydaları qəbul edilıb, elektron məhkəmə sistemi daha da təkmilləşdirilib və məhkəmələrə elektron müraciət imkanları yaradılıb. Bundan başqa, məhkəmə-hüquq islahatlarının icrası ilə bağlı olaraq yeni ixtisaslaşmış məhkəmələrin yaradılması, məhkəmə fəaliyyətinin rəqəmsallaşdırılması, məhkəmə qərarlarının səmərəliliyinin artırılması, şikayətlərə dair məhkəmə prosesi xidmətlərinin elektron formada aparılması istiqamətində qanunvericiliyin təkmilləşdirilməsi və digər tədbirləri mühüm yeniliklər olaraq qeyd etmək olar.

Azərbaycanın 2019-cu ildə apardığı bir sıra islahatların növbəti "Doing Business 2021" hesabatında nəzərə alınması proqnozlaşdırılır. Bunlara misal olaraq, tikinti obyektinin tikintisinə və istismarına icazələrin alınması üzrə elektron müraciət sisteminin tətbiqi, hüquqi şəxslərin dövlət qeydiyyatı üzrə dövlət qurumları arasında inteqrasiyanın təmin edilməsi ilə cəmi 1 prosedurla 20 dəqiqə ərzində vahid platformada qeydiyyatın tamamlanması, elektrik təchizatı şəbəkələrinə qoşulma üzrə elektron müraciət sisteminin təkmilləşdirilməsi əsasında cəmi 2 prosedurla 20 gün ərzində qoşulmanın həyata keçirilməsini qeyd etmək olar. Bundan başqa, "Yaşıl Dəhliz" buraxılış sistemindən daimi istifadə hüququnun əldə edilməsi imkanının yaradılması, gömrük bəyannamələrinin doldurulmsının daha da sadələşdirilməsi, dövlət satınalmaları üzrə elektron satınalma portalının yaradılması, Vergi Məcəlləsinə bir sıra dəyişiklərin edilməsi və digər yeniliklərin də "Doing Business 2021" hesabatında nəzərə alınacağı gözlənilir.



## Elektrik təchizatı şəbəkələrinə qoşulma sahəsində ölkədə aparılmış islahatlar

Dünya Bankının "Doing Business" hesabatında "Elektrik təchizatı şəbəkələrinə qoşulma" indikatoru hər birinin payı 25% olmaqla 4 alt indikator əsasında formalaşır. Bunlar şəbəkəyə qoşulmaq üçün tələb olunan prosedurların sayı, vaxt (günlər), xərclər (adambaşına düşən milli gəlirə % nisbətində), təchizatın etibarlılığı və tariflərin şəffaflığı indeksidir (0-8) (cədvəl 2).

**Cədvəl 2.**

**"Elektrik təchizatı şəbəkələrinə qoşulma" subindikatorları**

| İndikator | Subindikatorlar | Alt indikatorun payı |
|---|---|---|
| **Elektrik təchizatı şəbəkələrinə qoşulma** | Prosedur (sayı) | 25% |
| | Vaxt (günlər) | 25% |
| | Xərclər (adambaşına düşən milli gəlirə % nisbətində) | 25% |
| | Təchizatın etibarlılığı və tariflərin şəffaflığı indeksi (0-8) | 25% |

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Sahibkarın müraciəti əsasında elektrik şəbəkəyə qoşulma prosedurları və tələb olunan vaxt nə qədər azdırsa, habelə çəkilən xərclər nə qədər aşağıdırsa, elektrik enerjisi təchizatı sistemi nə qədər etibarlıdırsa, enerji kəsilmələri nə qədər azdırsa, enerrji tarifləri nə qədər şəffafdırsa, yekunda "Elektrik təchizatı şəbəkələrinə qoşulma" indikatoru bir o qədər yüksək olur. "Doing Business" 2012-2020-ci illər üzrə hesabatına əsasən, müqayisə olunan həmin 9 il ərzində Azərbaycanın ümumi reytinqdə yeri 2012-ci ildəki 173-cü yerdən 2020-ci il üzrə 80-ci yerə yüksəlib. Habelə təhlil edilən dövrdə prosedurların sayı dəyişməyib – 7, şəbəkəyə qoşulma üçün sərf olunan günlərin sayı 174 gündən 41 günə qədər azalıb, xərclər (adambaşına düşən milli gəlirə % nisbətində) 677,6-dan 125,7-yə düşüb, təchizatın etibarlılığı və tariflərin şəffaflığı indeksi (0-8) isə 8 ballıq şkala üzrə 5-dən 7-yə yüksəlib. Bu isə ümumi reytinqdə ölkəmizin mövqeyinin yüksəlməsinə səbəb olub. Belə ki, əgər Azərbaycan "Elektrik təchizatı şəbəkələrinə qoşulma" indikatoru üzrə 2012-ci ildə 173-cü yerdə idisə, 2015-ci ildən etibarən mövqeyi yaxşılaşmağa başlayıb və "Doing Business 2019"-da 74-cü yerə yüksəlib, "Doing Business 2020"-də 80-ci olub**.** Ümumiyyətlə, müqayisə edilən dövrdə müsbət dinamika müşahidə olunub (cədvəl 3).

**Cədvəl 3.**

**Azərbaycanın "Doing Business" hesabatında "Elektrik təchizatı şəbəkələrinə qoşulma" indikatoru üzrə illər üzrə mövqeyinin dinamikası**

| | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Ümumi (reytinq)** | 173 | 175 | 181 | 159 | 110 | 105 | 102 | 74 | 80 |
| **Prosedur (sayı)** | 7 | 7 | 7 | 7 | 7 | 7 | 7 | 7 | 7 |
| **Vaxt (günlər)** | 174 | 174 | 97 | 87 | 77 | 69 | 56 | 41 | 41 |
| **Xərclər (adambaşına düşən milli gəlirə % nisbətində)** | 677.6 | 591.2 | 122.9 | 106.8 | 103.6 | 150.4 | 171.8 | 140.4 | 125.7 |
| **Təchizatın etibarlılığı və tariflərin şəffaflığı indeksi (0-8)** | 5 | 5 | 5 | 5 | 7 | 5 | 5 | 5 | 7 |

Bunlarla yanaşı, 2019-cu ildə Elektrik təchizatı şəbəkələrinə qoşulma indikatoru üzrə günlərin sayı 41 gündən 20 günə, prosedurların sayı 7-dən 2-yə endirilsə də, Dünya Bankı özünün "Doing Business 2020" hesabatında Azərbaycanda aparılmış bu islahatları nəzərə almayıb. Bəzən Dünya Bankı hər hansı ölkədə aparılmış islahatı 1 il gecikmə ilə qeydə alır ki, ölkəmizlə bağlı bu halda da belə vəziyyət yaranıb. Çox güman ki, Dünya Bankı 2020-ci ildə hazırlayacağı "Doing Business 2021" hesabatında prosedurların sayının 2-yə, günlərin sayının 20-yə endirilməsini qeydə alacaq. Ancaq həmi islahatların nəzərə alınmaması Azərbaycanın "Doing Business 2020" hesabatında "Elektrik təchizatı şəbəkələrinə qoşulma" indikatoru üzrə 74-cü yerdən 80-ci yerə düşməsinə təsir göstərib. Azərbaycanda "Elektrik təchizatı şəbəkələrinə qoşulma" indikatoru üzrə bir sıra islahatlar həyata keçirilib. Belə ki, "Sahibkarların mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi ilə təchizatı prosedurunun sadələşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 4 aprel tarixli 1313 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidenti 25 dekabr 2018-ci il tarixli Fərman imzalayıb. Fərman Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkədə sahibkarlığın inkişafının stimullaşdırılması, biznes və investisiya mühitinin əlverişliliyinin artırılması istiqamətində işləri davam etdirmək, beynəlxalq reytinqlərdə Azərbaycan Respublikasının mövqeyini yaxşılaşdırmaq, sahibkarların mövcud və ya inşa ediləcək tikinti obyektlərinin enerji təchizatı şəbəkəsinə qoşulması ilə bağlı tələb olunan proseduru və müddəti optimallaşdırmaq, sahibkarlara göstərilən xidmətlərin



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

yüksək səviyyədə, keyfiyyətlə, rahat və sahibkar məmnunluğu əsasında həyata keçirilməsini təmin etmək məqsədilə imzalanıb [2].

Həmin Fərmana əsasən həyata keçirilən islahat təbirləri nəticəsində elektrik şəbəkəsinə qoşulma üzrə prosedurların sayı 7-dən 2-yə, bunun üçün sərf edilən müddət isə 41 gündən 20 günə endirilib. Həmçinin sahibkarlara elektrik enerjisi təchizatı şəbəkələrinə qoşulması üçün texniki şərtlərin, o cümlədən layihə sənədlərinin hazırlanması və göndərilməsi, həmçinin fiziki qoşulmanın təmin edilməsi məqsədilə müraciətlərin kiçik və orta biznes evlərində (KOB), "ASAN Kommunal" mərkəzlərində elektron qaydada edilməsinə imkan yaradılıb. Qeyd olunduğu kimi, elektrik təchizatı şəbəkələrinə qoşulma üzrə prosedurların sayı 7-dən 2-yə endirilib. Belə ki, 1-ci prosedur üzrə elektrik təchizatı şəbəkələrinə qoşulma ilə bağlı müraciət edilir və bunun üçün 10 gün vaxt verilir. Sahibkar KOB evləri, "ASAN Kommunal" və "ASAN Xidmət" mərkəzlərinə "Bir Pəncərə" prinsipi əsasında elektrik təchizatı şəbəkəsinə qoşulma ilə bağlı müraciət edir. Müraciət əsasında sahibkar tərəfindən yerində ödəniş edilir. "Azərişıq" ASC-nin "Bir Pəncərə"dəki əməkdaşı "Elektron Xəritə" üzərindən obyektin yerini, ona ən yaxın məsafədə olan güc mərkəzini müəyyən edir və çıxarışı ASAN Portala yerləşdirir. Texniki Şuranın aidiyyəti qurumlarla elektrik xəttinin trassasını razılaşdırır və razılaşma ilə bağlı digər aidiyyəti qurumlara məktub göndərir. Elektrik təchizatı layihəsi çıxarılır və smeta hazırlanır.

2-ci prosedur üzrə lektrik təchizatı şəbəkəsinə qoşulma ilə bağlı tikinti quraşdırma işləri başlanılır və bu uş üçün də 10 gün ayrılır. Həmin müddətdə tikinti quraşdırma işləri həyata keçirilir. "Sənədlər Paketi": texniki şərtlər, layihə-smeta sənədləri, qoşulma aktı, alqı-satqı müqaviləsi sahibkara təqdim edilir; ETM ilə sahibkar arasında qoşulma aktı və alqı-satqı müqaviləsi imzalanır. Müraciət edən sahibkarlıq subyektinə gərginlik verilir, yəni o enerji şəbəkəsinə qoşulur [6]. Elektrik təchizati şəbəkələrinə qoşulma üzrə aparılan islahatlar nəticəsində sahibkarların şəbəkəyə qoşulma ilə əlaqədar elektron müraciət imkanı yaradılıb. Elektrik təchizatı şəbəkələrinə qoşulma üzrə təkmilləşdirilmiş qaydalara əsasən sahibkarlarla təmas minimuma endirilib, şəbəkəyə qoşulma ilə əlaqədar sahibkarın iştirakı bir dəfə müraciət zamanı, bir dəfə də yekunda tikinti obyektinə elektrik enerjisinin verilməsi zamanı tələb olunur. "Elektron Xəritə" vasitəsi ilə sahibkarın obyektinin, güc mərkəzlərinin yeri və həmin mərkəzlərdə sərbəst güc səviyyəsi əraziyə baxış olmadan avtomatik onlayn qaydada müəyyən olunur. Fərmanda nəzərdə tutulan tədbirlər həyata keçirilsə də, elektrik enerjisi şəbəkəsinə qoşulma xərclərinin azaldılmasına ehtiyac var. Bunun üçün Azərbaycan Respublikası Nazirlər Kabinetinin bu sahədəi normativ hüquqi aktlarına (qoşulma qaydaları və tarifləri ilə bağlı 27 aprel 2018-ci il tarixli 180 nömrəli qərarı və 27 avqust 2013-cü tarixli 234 nömrəli qərarı) yenidən baxılaraq dəyişiklik edilməli, qoşulma tarifləri 3 dəfə azaldılmalıdır. Cünki bir çox ölkələrlə müqayisədə Azərbaycanda həmin xərclər yüksəkdir. Bu isə sahibkarların xərclərini artırır, onlar şəbəkəyə qoşulma xərclərini də ödəməli olurlar. Bu sahədə başqa ölkələrlə apardığımız müqayisəli təhlil daha aydın təsəvvür yaratmağa imkan verir.

**Elektrik təchizatı şəbəkələrinə qoşulma indikatoru üzrə ölkəvi müqayisələr**

Dünya Bankının "Doing Business 2020" hesabatına əsasən "Elektrik təchizatı şəbəkələrinə qoşulma" indikatoru üzrə ilk 10-luğa Birləşmiş Ərəb Əmirlikləri, Koreya Resbublikası, Honkonq, Malayziya, Almaniya, Tailand, Rusiya, Böyük Britaniya, Tayvan daxildir. 1-ci yerdə olan BƏƏ-də elektrik şəbəkələrinə qoşulma üçün 1 prosedur (Koreya, Honkonq, Malayziya, Almaniyada 3 prosedur), 7 gün vaxt kifayət edir (Koreyada 13, Honkonqda 24, Malayziyada 24, Almaniyada 28 gün), qoşulma xərci yoxdur (adambaşına düşən milli gəlirə % nisbətində Koreyada xərc 34.3, Honkonqda 1.3, Malayziyada 25.6, Almaniyada 37.0), təchizatın etibarlılığı və tariflərin şəffaflığı indeksi isə 8 ballıq şkala üzrə maksimum – 8-dir (Bax cədvəl 4). [5]. 80-ci yerdə qərarlaşan Azərbaycan bu sahədə coğrafi yaxınlıq və oxşar iqtisadi sistemə malik ölkələrlə müqayisə apara biləcəyimiz Rusiya (7-ci yer), Belarus (20-ci yer), Özbəkistan



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

36-cı yer, Türkiyə (41-ci yer), Gürcüstan (42-ci yer), Estoniya (53-cü yer) və Qazaxıstandan (67-ci yer) da geri qalır. Qonşu Rusiya son illər elektrik şəbəkəsinə qoşula prosedurlarının sayını 2-yə, günlərin sayını 38-ə, nisbi xərci 4.7-yə endirməklə, habelə enerji təchizatının etibarlılığını yüksəltməklə reytinqdə 7-ci yerə yüksəlib. Azərbaycanda da prosedurlarının sayının 2019-cu ildən 2-yə, günlərin sayının 20-yə endirildiyini nəzərə alsaq, deməli, ilkin mərhələdə nisbi qoşulma xərclərini də 3 dəfə azaltmaqla (125.7-dən 40.2-yə) və təchizatın etibarlılığını yüksəltməklə Dünya Bankının "Doing Business" hesabatında ilk 20 ölkə sırasına yüksəlmək mümkündür (Bax cədvəl 4).

Cədvəl 4-dən də göründüyü kimi, hansı ölkədə elektrik şəbəkəsinə qoşulma üzrə prosedurların və günlərin sayı nə qədər azdırsa, nisbi xərc aşağıdırsa, enerji təchizatı daha etibarlı və tariflər şəffafdırsa, ölkənin reytinqdə mövqeyi bir o qədər yüksək olur. Bu amilləri nəzərə alaraq ölkəmizin mövqelərinin yaxşılaşdırılması istiqamətində konkret qərarların qəbul edilməsi məqsədəuyğundur. Azərbaycan "Elektrik təchizatı şəbəkələrinə qoşulma" xərcləri üzrə (adambaşına düşən milli gəlirə % nisbətində) 190 ölkə arasında dünyada 65-ci yerdədir. Azərbaycanın enerji ölkəsi olduğunu, tam şəkildə özünü elektrik enerjisi ilə təmin etdiyini nəzərə alaraq ölkəmizdə də elektrik təchizatı şəbəkələrinə qoşulma xərcləri azaldılmalıdır. Şəbəkəyə qoşulma xərcləri sahibkarın üzərinə qoyulmamalı, onun xərc yükünə çevrilməməlidir. Təzhizatçı şirkət xidmət təklif edən tərəf kimi sahibkarın şəbəkəyə qouşulması üçün bütün texniki xərcləri öz üzərinə götürməlidir. Cünki bu, nəzəri və praktiki baxımdan onun işidir. Burada elektrik sayğacının quraşdırılma xərci istisna hal ola bilər ki, onun da xərci 500 manatdan artıq olmamalıdır (regionlar, kəndlər və iri şəhərlər üzrə fərqli tarif ola bilər). Təzhizatçı şirkət sahibkara xidməti tamamlanmış şəkildə təqdim etməlidir.



**Cədvəl 4.**

**"Doing Business 2020" hesabatında "Elektrik təchizatı şəbəkələrinə qoşulma" indikatoru üzrə ölkəvi müqayisələr**

| | **Ölkələr** | **Reytinqdə yeri** | **Prosedur sayı** | **Vaxt (günlərin sayı)** | **Xərclər (adambaşına düşən milli gəlirə % nisbətində)** | **Təchizatın etibarlılığı və tariflərin şəffaflığı indeksi (0-8)** |
|---|---|---|---|---|---|---|
| 1 | **Azərbaycan** | **80** | **7** | **41** | **125.7** | **7** |
| 2 | BƏƏ | 1 | 2 | 7 | 0.0 | 8 |
| 3 | Koreya Res. | 2 | 3 | 13 | 34.3 | 8 |
| 4 | Honkonq | 3 | 3 | 24 | 1.3 | 8 |
| 5 | Malayziya | 4 | 3 | 24 | 25.6 | 8 |
| 6 | Almaniya | 5 | 3 | 28 | 37.0 | 8 |
| 7 | Tailand | 6 | 2 | 30 | 3.9 | 8 |
| 8 | Rusiya | 7 | 2 | 38 | 4.7 | 8 |
| 9 | B.Britaniya | 8 | 3 | 46 | 23.1 | 8 |
| 10 | Tayvan | 9 | 3 | 22 | 37.0 | 7 |
| 11 | İsveç | 10 | 3 | 52 | 29.3 | 8 |
| 12 | Çin | 12 | 2 | 32 | 0.0 | 7 |
| 13 | Belarus | 20 | 3 | 105 | 84.4 | 8 |
| 14 | Avstriya | 29 | 5 | 23 | 85.8 | 7 |
| 15 | Özbəkistan | 36 | 4 | 88 | 441.2 | 8 |
| 16 | Türkiyə | 41 | 4 | 34 | 62.3 | 5 |
| 17 | Gürcüstan | 42 | 3 | 71 | 145.0 | 5 |
| 18 | Estoniya | 53 | 5 | 91 | 138.7 | 8 |
| 19 | Polşa | 60 | 4 | 113 | 16,3 | 7 |
| 20 | Qazaxıstan | 67 | 6 | 71 | 35.9 | 8 |

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Dünya təcrübəsinə müraciət etsək, hətta bəzi ölkələrdə qoşulma xərci 0-dır, yəni pulsuzdur. Məsələn, BƏƏ-də (1-ci yer), Çində (12-ci yer) və Yaponiyada (14-cü yerdədir) elektrik şəbəkəsinə qoşulma zamanı sahibkardan heç bir xərc tələb olunmur. Azərbaycanda elektrik şəbəkəsinə qoşulma xərci adambaşına düşən milli gəlirə % nisbətində götürdükdə, Rusiyadan 26,7 dəfə, Qazaxıstandan 3,5 dəfə, Türkiyədən 2 dəfə, Belarusdan 1,5 dəfə yüksəkdir. Azərbaycan elektrik şəbəkəsinə qoşulma üzrə təchizatın etibarlılığını və tariflərin şəffaflığını (indiki 7 səviyyəsindən 8-ə) artırmaqla müqayisə üçün bizə yaxın olan Rusiya, Belarus, Türkiyə və Qazaxıstan səviyyəsinə yüksəltməlidir.

**Nəticə**

Azərbaycanın reytinqdə "Doing Business 2019" hesabatındakı 74-cü yerdən "Doing Business 2020" hesabatında 80-ci yerə düşməsinin əsas səbəbi son 1 ildə bu sahədə ölkədə aparılan islahatların nəzərə alınmamasıdır. Belə ki, Azərbaycanda elektrik təchizatı şəbəkələrinə qoşulma sahəsində günlərin sayı (2019-cu ildən) 41 gündən 20 günə endirilsə də Dünya Bankı bunu 41 gün, habelə şəbəkəyə qoşulma üzrə prosedurların sayı 7-dən 2-yə endirilsə də, bu göstəricini 7 prosudur kimi qeydə alıb. Başqa ölkələrin bu sahədəki islahatları (prosedurların və günlərin sayını azaltmaları) qeydə alındığından Azərbaycan "Elektrik təchizatı şəbəkələrinə qoşulma" indikatoru üzrə 74-cü yerdən 80-ci yerə düşüb. Bununla yanaşı, "Doing Business 2020" hesabatında Elektrik təchizatı şəbəkələrinə qoşulma indikatoru üzrə Azərbaycanda xərclərin azaldılması (adambaşına düşən milli gəlirə % nisbətində 140.4-dən 125.7-yə düşməsi), habelə təchizatın etibarlılığı və tariflərin şəffaflığı indeksinin yaxşılaşması (0-8 aralığında 5-dən 7-yə yüksəlməsi) qeydə alınmışdır. Azərbaycan elektrik təchizatı şəbəkələrinə qoşulma indikatoru üzrə indiki xərcləri 125.7-dən müqayisə üçün bizə yaxın olan ölkələr – Rusiya - 4.7, Belarus – 84.4, Qazaxıstan - 35.9 səviyyəsinə qədər azaldılması yolu ilə "Doing Business 2021" hesabatında mövqelərini yüksəldə bilər. Bunun üçün Azərbaycanda həmin xərclərin (125.7) 3 dəfə (40.2-yə) azaldılması məqsədəuyğun olardı. Şəbəkəyə qoşulma xərcləri sahibkarın üzərinə qoyulmamalı, onun xərc yükünə çevrilməməlidir. Təzhizatçı şirkət xidmət təklif edən tərəf kimi sahibkarın şəbəkəyə qouşulması üçün bütün texniki xərcləri öz üzərinə götürməlidir. Cünki bu, nəzəri və praktiki baxımdan onun işidir. Xidmət sahibkara tamamlanmış şəkildə təqdim olunmalıdır. Bunun üçün Azərbaycan Respublikası Nazirlər Kabinetinin bu sahəni tənzimləyən normativ hüquqi aktlarına (qoşulma qaydaları və tarifləri ilə bağlı 27 aprel 2018-ci il tarixli 180 nömrəli qərarı və 27 avqust 2013-cü tarixli 234 nömrəli qərarı) yenidən baxılaraq dəyişiklik edilməli, qoşulma tarifləri 3 dəfə azaldılmalıdır. Azərbaycan indiki 2 prosedurla, günlərin sayını 20-dən 14 günə endirməklə, qoşulma xərclərini 3 dəfə azalatmaqla (125.7-dən 40.2-yə) və enerji şəbəkəsinin təchizatının etibarlılığı və tariflərin şəffaflığı indeksini 7-dən 8-ə yüksəltməklə "Doing Business 2021" hesabatında "Elektrik təchizatı şəbəkələrinə qoşulma" indikatoru üzrə reytinqdə ilk 10 ölkə sırasına yüksələ bilər. Hətta indiki prosedur sayı (2), vaxt (20 gün), təchizatının etibarlılığı və tariflərin şəffaflığı indeksi (7) ilə belə qoşulma xərclərini 3 dəfə azalatmaqla ilk 20 ölkə sırasına düşmək olar. Dünya Bankı "Doing Business" hesabatında sahibkarların istifadə etdiyi və biznes mühitinə mühüm təsir göstərən kommunal xidmətlər bazarında yalnız elektrik şəbəkəsinə qoşulma indikatoru üzrə hesablamalar və müqayisələr aparır, qaz və su (kanalizasiya) xəttinə qoşulma kimi mühüm amillər nəzərə alınmır. Qaz və su (kanalizasiya) xəttinə qoşulan sahibkarlar da faktiki olaraq müəyyən sayda prosedurlardan keçməli, xərc çəkməli, müəyyən vaxt gözləməli olurlar, habelə həmin xidmətlərin də təchizatının etibarlılığı və tariflərin şəffaflığı onların fəaliyyətinə həlledici təsir göstərir. Ona görə də, hesab edirik ki, bu 3 kommunal xidmətlərə qoşulmanın bir yerdə nəzərə alınması bu sahədə daha dolğun və aydın təsəvvür yarada bilər.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**Ədəbiyyat**

1. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamı, 13 iyul 2016-cı il.
2. "Sahibkarların mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi ilə təchizatı prosedurunun sadələşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 4 aprel tarixli 1313 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 25 dekabr 2018-ci il tarixli Fərmanı.
3. https://azranking.az AR Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyasının saytı.
4. https://russian.doingbusiness.org/ru/reports/global-reports/doing-business-2020
5. Doing Business 2020 - World Bank Group. http://www.worldbank.org/
6. AR İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icmalları. http://iqtisadiislahat.org/

***Махир Хамза оглу Зейналов***

***Рейтинг Азербайджана по индикатору "Подключение к системе электроснабжения" в отчёте "Doing Business" Всемирнового Банка***

***Резюме***

*В статье говорится о реформах, проведённых в последние годы в связи с подключением предпринимателей Азербайджана к сети электроснабжения, а также о рейтинге страны по индикатору "Подключение к системе электроснабжения" в отчёте "Doing Business" Всемирнового Банка.*

***Ключевые слова:*** *бизнес-среда, предпринимательство, Мировой Банк, "Doing Business", индикатор "Подключение к системе электроснабжения"*

***Mahir Hamza Zeynalov***

***Azerbaijan's rating on "Getting Electricity rank" indicator on according to the World Bank's Doing Business report***

***Summary***

*In the article discusses carried out the recent reforms in Azerbaijan's access to electricity supply networks of entrepreneurship and the country's rating in the Doing Business 2020 report.*

***Keywords:*** *business environment, entrepreneurship, World Bank, Doing Business, Getting Electricity rank*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 04.11.2019.***
***Çapa qəbul olunub: 07.11.2019.***



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az